TÜRKİYE DİYANET VAKFI BAKÜ TÜRK LİSESİ

# 2024-2025-ci il

# QƏBUL İMTAHANI

| 8 | A | III |
|---|---|---|
| SİNİF | VARİANT | QRUP |

Ad, Soyad

İş nömrəsi

## İNGİLİS DİLİ

1. How many variants are correct with Paired Conjunctions?
*1. Both the students and the teacher is excited about upcoming field trip.*
*2. Not only the chef but also the waiters were proud of their excellent service.*
*3. You must either approve the plan nor suggest a better one.*
*4. The room was both accessible or suitable for the children with disabilities.*
*5. Neither the guest nor the receptionist didn't notice the missing bowl.*
A) 4 B) 1 C) 3 D) 0 E) 2

2. Choose the correct Modal Verbs.
*This concert is free. You ... buy a ticket.*
1. needn't 2. ought to 3. haven't to
4. shouldn't 5. must
A) 1, 4, 5 B) 2, 3, 4 C) 1, 4 D) 3, 5 E) 2, 5

3. Fill the gap with the correct words.
*We stopped at the top of the hill to admire Shusha's amazing ... .*
1. disease 2. beauty 3. scenery
4. beads 5. flavour
A) 3, 4, 5 B) 2, 3 C) 2, 4 D) 1, 3 E) 1, 4, 5

4. Choose the correct variant.
*There are ... ... I can give you.*
A) piece of advice B) 3 advices C) a lot of advice
D) a piece of advice E) a few pieces of advice

5. Choose the *incorrect* sentence with Pronouns.
A) Neither shark was dangerous, they were calm and peaceful.
B) Every planet in our solar system orbits the Sun.
C) There was no amusement park near the village.
D) None students forgot the safety rules during the diving lesson.
E) Both telescopes were powerful and showed the stars clearly.

6. Choose the correct variant.
*She ... the last ingredient to the soup yet.*
A) won't add B) add C) has added
D) hasn't added E) didn't add

7. Which pronoun can replace the underlined words?
*That delicious aroma is coming from <u>my mother's kitchen</u>.*
A) it B) her C) its D) it's E) hers

8. Choose the correct Conjunctive Words.
*The translator ... helped us with the documents speaks five languages.*
1. who 2. which 3. whose 4. that 5. whom
A) 3, 4, 5 B) 1, 5 C) 1, 2, 4 D) 1, 4 E) 2, 3, 5

9. Match the halves.
*1. existing and happening over a large area or among many people*
*2. a small amount of food served before a meal*
*3. to move text or images on a computer screen or mobile device up, down*
a. scroll b. appetizer c. widespread
A) 1-c, 2-b, 3-a B) 1-a, 2-c, 3-b C) 1-b, 2-a, 3-c
D) 1-c, 2-a, 3-b E) 1-a, 2-b, 3-c

10. Choose the correct Degree of the Adjective.
*Today is ... than yesterday, so I decided to wear my thick winter coat and gloves.*
A) cold B) much cold C) colder
D) a colder E) the coldest

11. Choose the correct Countable Nouns.
A) bread, chess, thunder B) snow, flour, wind
C) music, job, problem D) egg, vegetable, gold
E) ray, cookie, sandwich

12. Choose the correct forms of the verbs.
1. My mother made me ... up the room again when she heard the good news.
a. clean b. cleaning c. to clean
2. I dream about ... in a place with the ocean nearby.
a. live b. living c. to live
3. I decided ... to a new city for better opportunities.
a. move b. moving c. to move
A) 1-a; 2-a; 3-b B) 1-b; 2-c; 3-b C) 1-c; 2-b; 3-a
D) 1-c; 2-a; 3-c E) 1-a; 2-b; 3-c

13. Choose the correct Possessive Pronoun.
*The red car parked outside is ...; she bought it last year after saving for months.*
A) her B) him C) our D) their E) hers

14. Choose the correct Tag Question.
*You watched the movie last night, ... ...*
A) weren't you? B) did you? C) don't you?
D) haven't you? E) didn't you?

15. Choose the correct Tense Forms.
*I ... very busy since I ... back from holiday.*
A) have been/have come B) was/have come
C) will be/came D) have been/came
E) was/came

*Qəbul imtahanı -2025*

**16.** Choose the <u>incorrect</u> variant with the Quantifier.
A) He didn't have much information about the event.
B) She gave me a little help with the project.
C) We need some milk for the coffee.
D) We don't have any chairs left for the meeting.
E) There are few student in the classroom today.

**17.** Choose the correct Reflexive Pronoun.
*Omer, it wasn't your fault, don't blame ... for what happened.*
A) himself B) yourself C) themselves
D) ourselves E) itself

**18.** Choose the correct sentences with Tense Forms.
*1. As soon as people invented plastic, it will begin replacing traditional materials.*
*2. After the forest fire started, rescuers have evacuated the villagers from the area.*
*3. When the cruise ship returned, the passengers shared their travel stories.*
*4. Farmers will struggle to grow crops if the drought continues.*
*5. The children were playing outside when the landslide started.*
A) 2, 3, 5 B) 1, 3, 4 C) 3, 4, 5 D) 1, 3 E) 2, 5

**19.** Choose the correct Interrogative Sentence.
A) Where have we to buy tickets for the concert?
B) How many books have you read this month?
C) What time do usually have you breakfast on weekdays?
D) When have your family moved to this city?
E) Who did go to the library with you last Saturday afternoon?

**20.** Choose the correct Adjective or Adverb.
1. She sings very ... in the school choir.
a. beautiful b. beautifully
2. The children looked ... when they saw the cake.
a. happy b. happily
3. He drives ..., especially in bad weather.
a. careful b. carefully
4. This soup tastes ..., doesn't it?
a. good b. well
A) 1-b; 2-b; 3-b; 4-a
B) 1-a; 2-a; 3-b; 4-b
C) 1-b; 2-a; 3-b; 4-a
D) 1-a; 2-b; 3-a; 4-b
E) 1-b; 2-b; 3-a; 4-a

Qəbul imtahanı -2025

***Read the passage and answer questions 21-25.***

*Hasan bey Zerdabi was one of the first Azerbaijani teachers, writers, and journalists. He worked hard to educate people and help them learn more about science, farming, health, and life. He believed that if people were more educated, <u>they</u> could live better lives. Zerdabi also thought that people should learn in their own language — Azerbaijani — not in foreign languages. In 1875, he started the first newspaper in the Azerbaijani language. It was called "Əkinçi". Just like a farmer who cultivates the land, Zerdabi wanted to "cultivate" or grow the minds of the people with knowledge and good ideas.*

*The newspaper was written in a simple and easy language so that everyone — especially farmers and villagers — could read and understand it. Zerdabi also wanted people to send their children to school, especially girls. He believed that education was the most important thing for a better future.*

*But not everyone liked what Zerdabi was doing. Some government leaders and religious people were against his ideas. They did not want people to change or become more educated. Because of this, the newspaper was closed in 1877, after only 56 issues. Even though "Əkinçi" did not last long, it was very important. It was the first Azerbaijani newspaper and helped people start thinking about their rights, language, and future.*

**21.** The underlined pronoun *<u>they</u>* refers to .... .
A) journalists B) writers C) teachers
D) people E) languages

**22.** Choose the correct statement according to the passage.
A) Zerdabi discouraged girls from attending school, believing education was only for boys.
B) ''Əkinçi'' was focused on entertainment and historical stories.
C) The government and religious leaders fully supported Zerdabi.
D) Hasan bey Zerdabi was the first Azerbaijani teacher who taught religion.
E) The newspaper was written in a simple language, so everybody could understand it easily.

**23.** What is the passage mainly about?
A) Women's role in education
B) The history of the Azerbaijani language
C) The Newspaper that lasted a century
D) Farming and science in the 1800s
E) The father of Azerbaijani press

**24.** Choose the best word to the given definition.
*'' to become larger or greater over a period of time, increase ''*
A) to think B) to change C) to grow
D) to believe E) to educate

**25.** Which question ***has no*** answer in the passage?
A) How did some people react to Zerdabi's ideas?
B) How many issues of ''Ekinci'' was published?
C) What was Zerdabi's educational backround and where did he study?
D) Who did Zerdabi especially want to educate through his newspaper?
E) Why did Zerdabi publish the newspaper?

## ƏDƏBİYYAT

**26.** Verilən nümunə ilə bağlı doğru fikri müəyyənləşdirin.
*"...Bir qədər keçdi, genə qaçhaqaç düşdü; genə dedilər "naçalnik gəlir". Amma bu da yalan oldu. Adamları araladılar, bu qonaq da girdi həyatə. Bu da "Qapazlı" kəndinin bəyi və mülkədarı məşhur Qurbanəli bəy idi..."*
A) Nəzm əsərindən bir parçadır, sözlərin qrammatik sıralanması pozulmuşdur.
B) Nəsr əsərindəndir, hadisə onu danışanın şahidliyi ilə verilir.
C) Lirik əsərdən götürülmüşdür, müəllif hadisənin doğurduğu hiss-həyəcanın ifadəsini ön plana çəkir.
D) Dram əsərindən remarka hissəsidir, müəllif əhvalatın baş verdiyi məkan barədə məlumat verir.
E) Nəsr əsərindəndir, hadisə oxucuya rəvayət şəklində çatdırılır.

**27.** Hansı əsərin ideyasına uyğun fikir ***verilməmişdir***?
*Yaddaşsız insan heç nədir.*
*Yaxşılıq da, pislik də bir gün öz sahibinə geri qayıdır.*
*Dost dosta tən gərək, tən olmasa, gen gərək.*
*Şah bir etsə zülmü, onun xadimləri yüz edər.*
A) "Nurəddin" B) "Sultan Səncər və qarı"
C) "Əqrəb və çanaqlı bağa" D) "Zeynalabdin"
E) "Manqurt"

**28.** M.Ə.Sabirin "Əkinçi" əsəri ilə bağlı hansı əlaqələndirmə doğru ***deyil?***

| ***Mülkədar*** | ***Aid edə bilərik.*** | ***Əkinçi*** |
|---|---|---|
| 1 ← | Yaşayışından qürurla danışır. | → 2 |
| 3 ← | Həyatı yaşadığı dövrə görə olduğu kimi əks etdirilib. | → 4 |
| 5 ← | Danışığına yer verilmir. | → 6 |

A) 1,2,3,6 B) 2,5 C) 1,3,4 D) 5,6 E) 2,4,5



**29.** Bu janr nə zamansa baş vermiş hadisələrin sonradan el arasında yayılması nəticəsində yaranmışdır.
A) əfsanə B) lətifə C) nağıl D) tapmaca E) rəvayət

**30.** Nöqtələrin yerinə hansı fikir yazılmalıdır?
*"Hikmətin fəziləti" (A. Bakıxanov) əsərindən fərqli olaraq, "Ağac" (İ. Krılov) əsəri ............*
A) məsnəvi şəklində yazılmışdır.
B) janrına görə mənzum hekayədir.
C) nəzmlə yazılıb, *aa, bb* şəklində qafiyələnib.
D) müəyyən süjet xəttinə malikdir.
E) şəxsləndirmə əsasında yazılmışdır.

**31.** Biri Basatdan kömək istəyən qadının Təpəgözlə bağlı söylədikləri sırasında verilə ***bilməz.***
A) Yeddi dəfə Oğuz elini yerindən qovdu.
B) Uca bir dağda məskən saldı, yol kəsdi, böyük quldur oldu.
C) Oğuz bəylərinin kimini şikəst etdi, kimini həlak elədi.
D) Qazanın qardaşı Qaragünə onun əlində əzildi.
E) Ağ saqqallı Aruz qocaya qan qusdurdu.

**32.** Məzmun və forma xüsusiyyətlərini nəzərə alaraq verilən nümunənin janrını müəyyənləşdirin.
*Çinar əlini çü rəqsə açdı,*
*Gül xurda zərin şəbaşə saçdı.*
*Çaylar bulandı, yıxdı arxın,*
*Bağlar ağacı göyərtdi şaxın.*
A) qəsidə B) məsnəvi C) mürəbbe D) qitə E) qəzəl

**33.** H.Cavidin "Ana" əsərindən verilmiş nümunələrə görə hadisələrin düzgün ardıcıllığını müəyyən edin.

İsmət əlindəki üzüyü Orxana göstərir. → I → İsmət əlindəki xəncəri gizlədir. → II → Səlma yaralanmış oğlunu görür.

*1. Səlma ana Murada qaçmaq üçün yol göstərir.*
*2. İsmət gülər üzlə əlində məktubla Səlma ananın yanına gəlir.*
*3. İzzət Orxana özünü yormamağı, İsmətə yalvarmamasını deyir.*
*4. Səlma ana Muradı evində gizlədir.*
*5. İsmət Qanpoladın xəncəri ilə özünü vurmaq istəyir.*
A) I-2; II-3 B) I-2,3; II-4 C) I-1; II-3,5
D) I-4,5; II-1 E) I-3; II-4

**34.** N. Gəncəvi "Sultan Səncər və qarı" əsərində nəyi ön plana çəkir?
A) şəxsiyyət azadlığını B) vətənpərvərliyi
C) ictimai ədaləti D) dosta sadiqliyi
E) qadın hüquqsuzluğunu

**35.** Yunan dilindən alınmış **dram** sözünün mənası hansı cavabda düzgün göstərilib?
A) hiss-həyəcan B) əhvalat, hadisə C) təsvir
D) nağıletmə, söyləmə E) hərəkət

**36.** Verilmiş bənd haqqında fikirlərdən biri ***səhvdir***:
*Ucu əşrəfili, bulut kimi saç,*
*Dal gərdəndə hər hörüyü bir qulac.*
*Kəlağayı əlvan, qəsabə qıyğac,*
*Altından cunası, hayıf ki, yoxdur. (M.P.Vaqif)*
A) Bütün misralarının daxili bölgüsü 6+5 şəklində deyil.
B) Orta bəndlərdən biridir.
C) Burada metafor, epitet və mübaliğədən istifadə edilib.
D) "Hayıf ki, yoxdur" ifadəsi rədifdir.
E) Heca vəznində yazılmışdır.

**37.** "Azad" hekayəsində hadisələr hansı şəhərlərdə cərəyan edir?
A) Təbriz, Zəncan
B) Ərdəbil, Təbriz
C) Tehran,Təbriz
D) Tehran, Zəncan
E) Ərdəbil, Zəncan

**38.** "Koroğlu" dastanından verilən parçalardan hansılar dastanın eyni qoluna aiddir?
*1. Dəlilər hamısı qalxdılar ayağa. Ləpirçilər düşdülər qabağa. Koroğlu özü də başladı geyinməyə. Elə bu dəmdə bir də gördülər ki, budur, keşikçilər bir adam gətirir.*
*2. Dağları görcək Koroğlunun ürəyi oynadı, gözləri doldu. Koroğlu çox qürbətlərdə olmuşdu. Amma heç belə qəribsəməmişdi. Budəfəki qürbət ona çox əsər eləmişdi.*
*3. Qırat ayaqlarını yerə döyüb kişnəməyə başladı. Dəmirçioğlu ilə Bəlli Əhməd Qıratın səsinə yuxudan ayılıb gördülər ki, qoşun dörd bir yanı tutub.*
*4. Koroğlu baxdı ki, əgər burada Koroğlu olduğunu boynuna alsa, dinməz-söyləməz onu öldürəcəklər.*
A) 1,4 B) 2,4 C) 1,3 D) 2,3 E) 1,2

**39.** "Bomba" əsərində Usta Feyzullanın evində bomba axtarışı süjet xəttinin hansı mərhələsidir?
A) ekspozisiya B) zavyazka C) kulminasiya
D) razvyazka E) final

**40.** Biri yalnız nəzmlə yazılır.
A) hekayə B) təmsil C) roman
D) poema E) atalar sözləri

**41.** Verilmiş nümunə hansı əsərdən götürülmüşdür?
*Çaxnaşmada göy üzündə ildırımlar,*
*Bir-birinə dəydi, baxın, qaldırımlar,*
*Dönmələrdə durana bax, qaçana bax!*
*Qaldırımda o balaca oğlana bax!*
A) "Azərbaycan" (S.Vurğun)
B) "Gənclərə nəsihət"(X.Şirvani)
C) "Dağlar" (A.Ələsgər)
D) "Yağış yağarkən" (M.Müşfiq)
E) "Azərbaycan - dünyam mənim" (M.Araz)

**42.** M.Hadinin "Türkün nəğməsi" əsəri ilə bağlı uyğunluğu müəyyən edin.

| ***Doğrudur.*** | ***Yanlışdır.*** |
|---|---|
| 1. Şeirdə qan ilə qazanılan zəfərin əldən verilməyəcəyi ifadə olunur. | 3. Əsərdə müəllifin adına, təxəllüsünə yer verilməyib. |
| 2. Əsərdə avamlıq və cəhalətin tənqidinə də yer verilmişdir. | 4. Əsəri süjetli lirika nümunəsi hesab edə bilərik. |

A) 1, 2 B) 3, 4 C) 1,4 D) 2,3 E) 2,4

**43.** Aşıq Ələsgərin "Bahar fəsli, yaz ayları gələndə" misrası ilə başlayan şeirində:
*1. dağlar dərd, kədər simvolu kimi təqdim olunur.*
*2. bədii suallara yer verilmişdir.*
*3. sənətkar özünü aşiq obrazı olan Məcnuna bənzədir.*
*4. şeirdə dağlar həm radif, həm də metaforik obrazdır.*
*5. Azərbaycanın tarixi-qəhrəmanlıq keçmişindən söz açılır.*
A) 1,3,5 B) 2,3 C) 1,2,4 D) 4,5 E) 3,4

**44.** S.Vurğunun "Azərbaycan" şeiri ilə bağlı fikirlərdən neçəsi doğrudur?
- Şeir vahidi bənddir, *aaabb* şəklində qafiyələnir.
- Yadelli işğalçılara qarşı mübarizədə xalqın yenilməzliyi ön plana çəkilir.
- Xalqın tarixi, mədəniyyəti, keçmişi barədə oxucuda təəssürat yaranır.
- Müxəmməs janrında, beşlik formasında yazılmışdır.
- Doğma vətənini dərin məhəbbətlə sevən şair bu vətənin dağını, aranını incə, gözəl boyalarla əks etdirir.

A) 5 B) 4 C) 3 D) 2 E) 1

**45.** Verilən nümunədə bədii təsvir vasitəsinin hansı növü işlənmişdir?
*Gecədir... Kənd yuxulu, Nə işıq var, nə tüstü.*
A) təşbeh B) metonimiya C) epitet
D) metafor E) simvol

46. *– İkilik şeir şəklindədir.*
*– Şair doğma xalqının düşmənlərini qəzəb və nifrətlə ifşa etməklə yanaşı, nöqsanların aradan qaldırılması, gerilikdən xilas olmağın yollarını da göstərir.*
*– Əsərdə inkişaf və tərəqqiyə çağırış var.*
Söhbət hansı əsərdən gedir?
A) “Əkinçi” B) “Dağlar” C) “Durnalar”
D) “Ağrımaz” E) “Qafqaz müsəlmanlarına xitab”

47. S.S.Axundovun “Nurəddin” əsərindəki Gülpəri və Əmiraslan obrazlarına aid hansı xüsusiyyətlər Eyler-Venn diaqramının kəsişməsinə yazıla ***bilməz?***




*1. Tamahkar və var-dövlət hərisidir.*
*2. Əsərin sonunda peşman olduğunu bildirir.*
*3. Nurəddini aradan götürməyi düşünürdü.*
*4. Ailənin tək övladı olmuş, atası əzizləmiş, ərköyün böyütmüşdü.*
A) 2,4 B) 3,4 C) 1,2 D) 1,3 E) 1,4

48. “Koroğlu və Bolu bəy” qolundan verilmiş nümunədə nöqtələrin yerinə kimin adı yazılmalıdır?
*.........hay vurdu Dəli Mehtərə ki:*
*– Atı yəhərlə! Gərək Bolu bəyə bir toy tutum ki, qiyamətdə də yadından çıxmasın.*
A) Dəmirçioğlunun B) İsabalının C) Dəli Həsənin
D) Bəlli Əhmədin E) Koroğlunun

49. Bədii əsərin əvvəlində yazıçı oxucunu əsərdə danışılan əhvalatla yığcam şəkildə tanış edir. Həmin hissə necə adlanır?
A) proloq B) epiloq C) epiqraf
D) ekspozisiya E) final

50. M.Füzulinin “Söz” qəzəlindən verilmiş beytlərdən birində “İnsan ölər, sözü qalar” fikri ifadə olunur.
A) Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.
B) Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.
C) Xazini-gəncineyi-əsrardır, hərdəm çəkər,
Rişteyi-izharə min-min gövhəri-əsrar söz.
D) Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saat səni ol uyqudan bidar söz.
E) Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.



## TARİX

51. Ağa Məhəmməd Qacarın özünü Səfəvi dövlətinin varisi elan etdiyi şəhəri müəyyən edin.




A) 2 B) 4 C) 1 D) 3 E) 5

52. Quba və Urmiya xanlıqlarının oxşar cəhətlərinə aiddir:
A) Əfşarlar sülaləsinin nümayəndələri tərəfindən idarə edilməsi
B) Şəki xanlığının asılı hala salınması
C) Qarabağ xanlığına uğursuz yürüş edilməsi
D) Rusiyadan hərbi yardımın alınması
E) Bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi

53. Birinci Rusiya – Qacar müharibəsi illərində baş ***verməmişdir:***
A) İrəvan xanı Məhəmməd Hüseyn xanın rus qoşunlarını məğlub etməsi
B) Qarabağ xanlığının müstəqil xarici siyasət hüququndan məhrum edilməsi
C) Qacar qoşunlarının Şahbulaq qalasını mühasirəyə alması
D) Şəki xanı Səlim xanın Rusiya əleyhinə üsyan qaldırması
E) Gürcüstanda rus ordusunun baş komandanı tərəfindən idarə olunan quberniyanın yaradılması

54. Rusiya imperatoru I Pyotr:
A) Dərbənd qalasını ələ keçirdi
B) Səfəvilərlə ticarət müqaviləsi imzaladı
C) İsveçə qarşı Şimal ittifaqını qurdu
D) Qara dənizə çıxış əldə etdi
E) Qərbi Avropaya “Böyük elçilik” göndərdi

**55.** Hadisə-nəticə əlaqələrinin doğru verildiyi cavabı müəyyən edin.

| | *Hadisə* | *Nəticə* |
|---|---|---|
| A) | Nadir şah daxili siyasətdə bir sıra tədbirlər həyata keçirdi | Qarabağda və İrəvanda mərkəzi hakimiyyətə qarşı üsyanlar baş verdi |
| B) | Car vilayətində Əfşarlara qarşı üsyan baş verdi | Azərbaycan vilayətinin hakimi İbrahim xan tərəfindən yatırıldı |
| C) | Nadir şah Xəzər dənizində hərbi donanma yaratdı | Osmanlı dövləti ilə yeni müharibə başlandı |
| D) | Nadir xan çevriliş yolu ilə hakimiyyəti ələ keçirdi | Əfşarlar dövlətinin əsası qoyuldu |
| E) | Şirvanda I Sam mirzə qiyam qaldırdı | Azərbaycanda ilk müstəqil xanlıq yarandı |

**56.** Şah I Təhmasibdən ***fərqli*** olaraq Şah I Abbas:

A) Dövlət idarəçiliyində irsilik prinsipini ləğv etmişdi
B) Niyazabadda Osmanlı – Krım qüvvələri üzərində qələbə qazanmışdı
C) Osmanlı dövləti ilə sülh müqaviləsi imzalamışdı
D) Tamğa vergisini ləğv etmişdi
E) Səfəvilər dövlətində ilk dəfə daimi nizami ordu yaratmışdı

**57.** XVII əsrin əvvəllərində dənizdə və müstəmləkə siyasətində İngiltərənin əsas rəqibi idi:

A) Osmanlı B) İsveç C) ABŞ
D) İspaniya E) Rusiya

**58.** İşğalçı general Sisianovun Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verməsinin səbəbi:

A) Qacarlar dövlətinin əsas zərbə qüvvələrinin xanlığın ərazisində yerləşməsi
B) Cavad xanın Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizə aparması
C) Osmanlı ilə həmsərhəd olan Gəncə qalasının strateji əhəmiyyət daşıması
D) xanlığın rus qoşunlarının Azərbaycanın içərilərinə doğru sonrakı irəliləyişinin açarı olması
E) burada baş verən üsyanlara tezliklə son qoymaq istəyi



**59.** Səfəvilər dövlətinin XVII əsr xarici siyasətinə aid uyğunluğu müəyyən edin.

| ***1.Rusiya dövləti ilə münasibətləri*** | ***2.İngiltərə krallığı ilə münasibətləri*** | ***3.Osmanlı dövləti ilə münasibətləri*** |
|---|---|---|
| a.Şah Sultan Hüseyn tərəfindən rus tacirlərinə gömrüksüz ticarət hüququnun verilməsi | a.Moskva şirkətinin nümayəndəsi ilə danışıqların aparılması | a.Şərqi Gürcüstan uğrunda mübarizənin aparılması |
| b.Peterburq müqaviləsinin imzalanması | b.Portuqaliya əleyhinə hərbi ittifaqın qurulması | b.Amasiya sülhünün şərtlərinin bərpa edilməsi |
| c. Hərbi münaqişənin baş verməsi | c.Azərbaycan ipəyinin Avropa bazarlarına çıxarmaq hüququnun inhisara alınması | c.Çıldır döyüşündə məğlub olması |

A) 1-b,c 2-a,c 3-b B) 1-a,c 2-a,b 3-a,b
C) 1-c, 2-b, 3-a,b D) 1-c, 2-a,b 3-a,c
E) 1-a,b 2-c, 3-a

**60.** Xəritədə əraziləri xüsusi işarələnmiş xanlıqlara aid ümumi cəhət(lər)i müəyyən edin.



*1. Rusiya ilə sülh müqaviləsi imzalamışdır*
*2. Ərazisində XVIII əsrin ikinci yarısında ikihakimiyyətlilik mövcud olmuşdur*
*3. Şəki xanlığı ilə Quba xanlığına qarşı ittifaq qurmuşdu*
*4. Gülüstan sülhü ilə Qacarlar dövlətinə ilhaq edilmişdi*
*5. XIX əsrin birinci onilliyində xan hakimiyyətinə son qoyulmuşdu*

A) 3, 5 B) 1, 2, 3 C) 3, 4, 5
D) 2, 4 E) Yalnız 2

**61.** Car-Balakən camaatlığının idarəetmə qaydalarına aiddir:

*1. Şəki xanlığı və İlusu sultanlığı ilə ittifaqın qurulması*
*2. İcmalardan ibarət olması*
*3. Camaatlıqda ali idarəetmə orqanının Ağsaqqallar şurası olması*
*4. İdarəetmənin şəriət qaydaları ilə həyata keçirilməsi*
*5. İcmaların idarə edilməsində qazıların iştirak etməsi*

A) Yalnız 2,4 B) 2,3 C) 1,3 D) 1,4,5 E) 2,4,5

**62.** Uyğunluğu müəyyən edin.

**I və II Rusiya-Qacar müharibələrinin**

**1. Oxşar cəhətləri**
a. Şuşa qalası Qacar qoşunları tərəfindən mühasirəyə alınmışdı
b. Rusiya işğalına qarşı Azərbaycanda üsyanlar baş vermişdi
c. Quba xanlığında Əyalət Şurası fəaliyyət göstərmişdi

**2. Fərqli cəhətləri**
a. Sərdarabad qalası ələ keçirilmişdi
b. Qacar qoşunlarına Abbas mirzə rəhbərlik etmişdi
c. Şəki xanlığı ilə Rusiya arasında müqavilə imzalanmışdı

A) 1-a 2-a,b B) 1-b,c 2-c C) 1-a 2-b
D) 1- b,c 2- a,c E) 1-b 2-a,c

**63.** Hansı hadisələrin yerlərini dəyişdirsək xronoloji ardıcıllıq alınar?

*1. ABŞ konstitusiyasına ilk əlavə və düzəlişlərin edilməsi*
*2. Osmanlı dövlətində Sultan III Səlimin hakimiyyətə gəlməsi*
*3. Ağa Məhəmməd xan Qacarın Azərbaycanın şimal torpaqlarına yürüş etməsi*
*4. V. Zubovun başçılığı ilə Rusiyanın Azərbaycana işğalçı yürüşə başlaması*
*5. Rusiyada II Yekaterinanın hakimiyyətinin başa çatması*

A) 2,3 B) 4,5 C) 1,2 D) 3,5 E) 1,4

**64.** Osmanlı dövlətində dağılma dövrünün başlanğıcı hesab edilir:

A) Sultan I Əhmədin "Qəfəs üsulu"nu tətbiq etməsi
B) Sədrəzəm İbrahim paşanın hakimiyyətdən uzaqlaşdırılması
C) Rusiya tərəfindən Krım xanlığının işğal edilməsi
D) Kiçik Qaynarca müqaviləsinin imzalanması
E) Yassı sülhünün imzalanması

*Qəbul imtahanı -2025*

**65.** Xəritədə ərazisi ulduzla işarə olunmuş dövlətin XVIII əsr tarixinə aiddir:



*1. Misir uğrunda Osmanlı dövləti ilə müharibənin aparılması*
*2. İngiltərə respublikasını tanıması*
*3. ABŞ ilə ittifaqın qurulması*
*4. Şimal ittifaqına qoşulması*
*5. Ərazisində İngiltərə və ABŞ-nin sülh müqaviləsi imzalaması*

A) 2,4,5 B) Yalnız 1 C) 1,3,5
D) 2,4 E) Yalnız 3,5

**66.** Eyler-Venn diaqramına əsasən A-nı müəyyən edin.




*1. Azərbaycan torpaqlarının birləşdirilməsi siyasətinin yeridilməsi*
*2. Azərbaycanın cənub torpaqlarına yürüş təşkil edilməsi*
*3. Qarabağ xanlığı üzərinə hücum edilməsi*
*4. Şahsevən tayfasının bir hissəsinin xanlığın ərazisinə köçürülməsi*
*5. Qazax və Borçalını öz tərkibinə daxil etməsi*

A) 3,4 B) 2,4 C) 1,3
D) 2,5 E) Yalnız 5

**67.** Gilgilçay üzərində rus qoşunlarını məğlub etmişdi:

A) Kəlbəli xan B) Ağakişi xan C) Şeyxəli xan
D) Hüseynəli xan E) Abbas mirzə

**68.** Göstərilənlər aiddir:

*1. Pənahəli xan tərəfindən Qarabağ xanlığına tabe edilmişdi*
*2. Məlik Şahnəzər tərəfindən idarə edilmişdi*

A) Dizaq məlikliyinə B) Gülüstan məlikliyinə
C) Vərəndə məlikliyinə D) Xaçın məlikliyinə
E) Çiləbörd məlikliyinə

**69.** Uyğunluğu müəyyən edin.

| | **Döyüş** | **Nəticə** |
|---|---|---|
| 1 | ? | Əldə olunmuş qələbə ABŞ-nin beynəlxalq nüfüzunu xeyli artırdı |
| 2 | ? | Rusiya İsveç üzərində qələbə qazandı |
| 3 | ? | Stüartlar sülaləsinin qüvvələri məğlub oldu |

A) 1-Poltava, 2-Yorktaun, 3-Neyzbi
B) 1-Neyzbi, 2-Prut, 3-Yorktaun
C) 1-Yorktaun, 2-Poltava, 3-Saratoqa
D) 1-Saratoqa, 2-Neyzbi, 3-Prut
E) 1-Saratoqa, 2-Poltava, 3-Neyzbi

**70.** Sxemi tamamlayın.




*1. Hakimiyyəti dövründə dövlət idarəçiliyində böhran baş vermişdir*
*2. Ordubad şəhərində örtülü bazar inşa edilmişdir*
*3. Saib Təbriziyə "məlik-üş-şüara"adı vermişdir*
*4. Rus tacirlərinə imtiyazlar verən müqavilə imzalamışdır*
*5. Bütün İraqı yenidən Səfəvilər dövlətinə tabe etmişdir*

A) 3,5 B) 1,3 C) 2,4 D) 1,4 E) 2,5

**71.** Azərbaycanda **rəhdari** adlanırdı:
A) daxili gömrük vergisi
B) xanlıqlarda toplanan əsas məhsul vergisi
C) kəndli bağlarından toplanan vergi
D) otlaqlardan istifadə müqabilində rəiyyətin ödədiyi vergi
E) Osmanlıların Azərbaycan kəndlilərindən topladığı məhsul vergisi

**72.** XVIII əsrin ikinci yarısında feodal sinfinə daxil olanları seçin.
*1. Məliklər*
*2. Elbəyilər*
*3. Sultanlar*
*4. Rəncbərlər*
*5. Sənətkarlar*

**73.** Müqavilələrin imzalanma ardıcıllığını müəyyən edin.
*1. Prut*
*2. Peterburq*
*3. Kirmanşah*
*4. Niştadt*

**74.** XVII əsrin 80-ci illərində baş vermişdi:
*1. İngiltərədə kral hakimiyyətinin ləğv edilməsi*
*2. Rusiyada I Pyotrun hakimiyyətə gəlməsi*
*3. Osmanlı dövlətinin Vyanaya hücum etməsi*
*4. Reç Pospolita ilə Rusiya arasında tarixi düşmənçiliyə son qoyulması*
*5. İngiltərənin ABŞ-nin müstəqilliyini tanıması*



**75.** Uyğunluğu müəyən edin.
***İngiltərə:***
1. Respublika dövründə
2. Stüartlar sülaləsi dövründə

*a. Şimali Amerikada ilk ingilis koloniyası quruldu*
*b. "Uzunmüddətli parlament" fəaliyyətə başladı*
*c. Aqrar çevriliş başa çatdı*
*d. "Hüquqlar haqqında bill" qanunu qəbul edildi*
*e. İcraedici hakimiyyət Dövlət Şurasına məxsus idi*

## AZƏRBAYCAN DİLİ

*76-80-ci suallar mətn əsasında cavablandırılacaq.*

Qədim zamanlarda bir hökmdar var idi. Bu hökmdarın ağıllı bir xəzinədarı var idi. Xəzinədarın artan nüfuzu saray sakinlərini narahat edir, xəzinədara qarşı paxıllıq hissi yaradırdı. Getdikcə artan həsəd və paxıllıq hissi saray sakinlərini bir tədbir tökməyə vadar edir. Onlar xəzinədarın üstünə şər atmaq və onu hökmdarın gözündən salmaq qərarına gəlirlər.

Saray adamları bir müddət xəzinədarı izləyir[1], hər addımına diqqət yetirirlər. Öyrənirlər ki, xəzinədarın evində elə bir otaq var ki, orada xəzinədardan başqa heç bir kəs olmur. Otaq hər zaman bağlı olaraq qalır. Otağın qıfılının açarını isə xəzinədar heç bir kəsə vermir[2].

"Otaqda xəzinədən oğurlanan qızıllar gizlədilib, - deyə saray adamları fikirləşdilər,- saray xəzinəsi onun əlindədir, hökmdar ona güvənir[3], ona görə də xəzinədən nə qədər oğurluq etdiyini gizlədə bilir". Beləliklə də, saray adamları hökmdarın yanına gedərək[4] xəzinədarın saray xəzinəsindən oğurluq etdiyini və oğurladıqlarını evindəki sirli otaqda saxladığını deyirlər. Hökmdar həqiqəti öyrənmək qərarına gəlir[5] və xəzinədarın evinə gedərək o sirli otağın açılmasını əmr edir.

Xəzinədar hökmdarın əmrini yerinə yetirir. Onu sirli otağa aparır və qapıları açır. Hökmdar otaqda üzərində bir xurcun və çoban yapıncısı olan bir masa görür. O, təəccüblə xəzinədara baxır. Xəzinədar hökmdara deyir: "Mən əvvəllər çoban olmuşam. Siz məni saraya qəbul etdiniz, oxutdurdunuz, böyük bir vəzifə verdiniz. Ancaq mən kim olduğumu unutmadım. Sizin mərhəmətiniz sayəsində indi cah-calal içində yaşayıram. **Mən hər gün bu otağa gələrək öz keçmişimi xatırlayır, dualar edirəm. Bura gəlməklə kim olduğumu özümə xatırladıram ki, var-dövlət mənim hafizəmi zəiflətməsin, heç nəyi unutdurmasın".**

Bu sözlərdən sonra hökmdar xəzinədarı qucaqlayır, sonra üzünə baxaraq: "Bu günə qədər sən qızıllarımın xəzinədarı idin, ancaq indi qəlbimin xəzinədarısan", – deyir.

**76.** Üzərində rəqəm yazılmış sözlərdən biri məcazi mənalıdır.
A) 5 B) 4 C) 3 D) 2 E) 1

**77.** Uyğunluğu müəyyən edin.
*1.Pislik əvəzsiz qalmaz. → saray adamları*
*2. Haqq ləkə götürməz. → xəzinədar*
*3. Hirsli başda ağıl olmaz. → hökmdar*
*4. Keçmişini unudanın gələcəyi olmaz. → xəzinədar*
*5. Güc birlikdədir. → saray adamları*
A) 3,4,5 B) 2,4 C) 1,4 D) 1,2,3 E) 1,2,5

**78.** Mətnin tərkib hissələrinin planı ilə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

| | |
|---|---|
| **Giriş** | 1. Xəzinədarın oğurluqda günahlandırılması<br>2. Saraydakıların həsəd və paxıllıq hissi |
| **Əsas** | 3. Hər zaman bağlı qalan otaq<br>4. Sirli otağın açılması |
| **Nəticə** | 5. Hökmdarın xəzinədarın sözlərindən təsirlənməsi<br>6. Keçmişin xatırlanması |

A) 2, 3 B) 1, 6 C) 3, 4, 6 D) 1, 4, 5 E) 2, 5

**79.** Mətndə tünd rənglə verilmiş hissədə hansı sözün əvəzlənməsi məzmuna görə düzgün ***olmaz***?
A) var-dövlət – zənginlik
B) unutdurmasın – yaddan çıxartdırmasın
C) hafizəmi – yaddaşımı
D) xatırlayır – yada salır
E) dualar – müraciətlər

**80.** Mətndəki hansı məlumat digərləri ilə müqayisədə daha əvvələ aiddir?
A) Hökmdarın sirli otaqdakıları görməsi
B) Xəzinədarın artan nüfuzunun saray sakinlərini narahat etməsi
C) Saray adamlarının xəzinədarı izləməsi
D) Xəzinədara qarşı paxıllıq hissinin yaranması
E) Saray xəzinəsindən oğurluq edilməsi haqda hökmdara məlumatın çatdırılması

**81.** Hansı bənddə məsdər tərkibi feili sifət tərkibinin asılı tərəfidir?
A) Qocanın şikayət ərizəsində yazdıqlarından hər şeyi başa düşmək olurdu.
B) Ancaq onu gözləməkdən tamamilə yorulandan sonra öz daxmasına çəkilərdi.
C) Oğlundan gələn məktubları oxuduqca onu fərəh bürüyürdü.
D) Təhsil almaq istəyini bildirən Sənəm atasının narazılığı ilə qarşılaşacağını bilmirdi.
E) Dağların döşündə bitən çiçəkləri dərmək ona ayrı bir rahatlıq gətirirdi.

**82.** Hansı bənddə xitab feili sifətlə ifadə olunub?
A) Üç ay qonaqdır bahar bizə,
Gəl boynunu bükmə, bənövşə.
B) Gecə-gündüz həsrətin çəkdiyim oğul, gözüm yolda qalıb, tez gəl.
C) Körpə balam, rahat yat.
D) Dediyim, şükür, düz çıxdı.
E) Gecikənlər, siz də bu fikirlə razısınız?

*Qəbul imtahanı -2025*

**83.** Cümlə üzvü yerində işlənən hansı sözlər suala cavab ***vermir?***

*1. yenə* *2. bəsdir* *3. kim* *4. gözəl*

A) 3,4 B) 1,3 C) 1,2 D) 2,4 E) 2,3

**84.** Uyğunluğu müəyyən edin.

A) *"Biz etiraz edəndə bu reaksiyanı gözləmirdik."* – cümləsində zərflik feili birləşmə ilə ifadə olunub .– ***doğru***

B) Şəxssiz cümlələrin xəbəri III şəxsin təkində olur. – ***yanlış***

C) Mübtəda sintaktik əlaqədə əsas tərəf olur. – ***yanlış***

D) Bütün ara sözlər modal sözlərdir. – ***doğru***

E) *"Alimlərin fikirləri qızıl kimi dəyərlidir."* cümləsində təyin qoşmalı sözlə ifadə olunmuşdur. – ***yanlış***

**85.** *"......, kimin qalib olduğunu bilirsiniz "*

Hansı bənddəki ara sözü seçsək, verilmiş nümunənin sonuna sual işarəsini əlavə edə bilərik?

A) bəs B) yəni C) şübhəsiz

D) əfsus E) olmaya

**86.** ——— ═══ sxeminə uyğun cümlə hansı variantdadır?

A) Xalamın dişi bağırsağını kəsirdi.

B) Şagirdin bu mövzudakı dolğun cavabları müəllimi qane etdi.

C) Ona kömək etməyə bircə mən gəlmişdim.

D) Quldurun sözünün üstündə durmaması gözlənilən idi.

E) Bacısı Amerikada tanınmış bəstəkar idi.

**87.** Ara söz işlənən cümlələrdən biri qeyri-müəyyən şəxsli cümlədir.

A) Əziyyət çəkənlər, şübhəsiz ki, əziyyətiniz hədər getməyəcək.

B) Sözsüz ki, burada ətrafın təmizliyinə diqqət yetirilirdi.

C) Atalar demişkən, yeməyənin payını yeyərlər.

D) Yəqin ki, fəhlələr işin gedişatından narazı idilər.

E) Ola bilsin ki, onların layihəsini qəbul etməyiblər.

**88.** Hansı bənddə verilmiş sözü cümlənin həm mübtədası, həm də tamamlığı vəzifəsində işlətmək olar?

A) oğlu B) qələmi C) beyini D) anası E) sinfin

**89.** Sual cümlələrindən hansı həm sual ədatı, həm də sual əvəzliyinin köməyi ilə düzəlib?

A) Heç o gözəl uşaqlıq illərini unutmaq olarmı?

B) Görəsən, bizim onun üçün etdiyimiz yaxşıdırmı?

C) Bəs hansı tanışların bu məclisdə olacaq?

D) Ən gözəl məslək hansıdır?

E) Rəisin bizə təklif etdiyi nədir?

**90.** Hansı nümunədə əlavə cümlə üzvünə aid ***deyil***?

A) Ayxan Şuşaya – doğma yurduna qayıdandan sonra sevinci yerə - göyə sığmırdı.

B) Səhər – günəşin ilk şəfəqləri görünəndə yola çıxdılar.

C) Bəzi şagirdləri – olimpiadada uğur qazananları medalla təltif etdilər.

D) Biz, Vətən oğulları, bu torpağı göz bəbəyimiz kimi qorumalıyıq.

E) Orada, yəni dağın ətəyində qoyunlar otlayırdı .

**91.** Cümlə üzvü olmur, ancaq yerinə görə bitmiş fikir ifadə edə bilir:

A) əlbəttə B) qeyri C) var

D) xeyir E) gərəkdir

**92.** Hər iki tərəfi sifətlə ifadə olunmuş ismi birləşməni müəyyənləşdirin.

A) çit parça B) oxumuş cavan C) dolğun cavab

D) dünənki körpə E) tez solan

**93.** *"Elmin tərəqqisi alimlərin kəşfləri və ixtiraları ilə müəyyən olunur."* cümləsinin sintaktik təhlilindəki ***səhvi*** göstərin.

A) Mübtədası və xəbəri mürəkkəbdir.

B) Müəyyən şəxsli cümlədir.

C) İkinci dərəcəli üzvlərdən yalnız biri işlənmişdir.

D) Nəqli cümlədir.

E) Xəbəri sintaktik əlaqənin həm əsas, həm də asılı tərəfidir.

**94.** Hansı cümlənin sintaktik təhlil sxemini yalnız bir cür düşünmək olar?

A) Ət bişir.

B) Kəndə doğru yol tapdı.

C) Evə sarı maşınla gedərkən tutuldu.

D) Qardaşım, doğrudan, gəldi.

E) Mühəndis Ramizi çağırdı.

**95.** Variantlardan birində həmcins üzvlər ***işlənməmişdir.***

A) Göyçək Fatma və qardaşı meşədə azdılar.

B) Ölməz bu gözəl aləmə idrakla gələnlər,
Mənə evinin sirrini vicdanla bilənlər.
*(S. Vurğun)*

C) Şeir də, musiqi də onun ruhunun qidası idi.

D) Şərəflə ləyaqət ruhun bəzəyidir.
*(M. Servantes)*

E) İxtiraların praktik əhəmiyyəti dərk edilmir və onlar bir-birinin ardınca unudulur.

**96.** Mürəkkəb adların yazılışı ilə bağlı uyğunluğu müəyyən edin.

| Yazılışı ***doğrudur.*** | Yazılışı ***yanlışdır.*** |
|---|---|
| 1.”Elitar” gimnaziya | 4. Əməkdar Elm xadimi |
| 2. Seyid Şuşinski küçəsi | 5. Böyük Vətən Müharibəsi |
| 3. Ağdam Rayon Təhsil şöbəsi | 6. Səməd Vurğun adına Rus Dram Teatrı |

A) 3,4,6 B) 1,3,5 C) 2,4,5 D) 1,2,6 E) 3,4,5

**97.** Hansı cümlələrin təyini eyni nitq hissəsi ilə ifadə olunmuşdur?

*1. Bunlar usta Abdullanın əl işləri idi.*
*2. Nazlı mis səhəngini doldurub bulaqdan aralandı .*
*3. Maşın torpaq yolun aşağısından sola döndü.*
*4. Müdrik qoca İsgəndərə quşların dilini öyrətdi.*
*5. Azərbaycanın bənzərsiz təbiəti səyyahların diqqət mərkəzində olub.*

**98.** Müqayisə edib doğru fikirləri müəyyən edin.

*I Ölkəmizdə təbiətin füsunkarlığına heyran olursan.*
*II Biz kəndə çatanda axşam idi.*




*1. Müəyyən şəxsli cümlədir.*
*2. Ümumi şəxsli cümlədir.*
*3. Feili xəbərlidir.*
*4. Mürəkkəb cümlə üzvü işlənmişdir.*
*5. Xəbəri sadədir.*
*6. Uzlaşma əlaqəsi işlənməmişdir.*

**99.** Mürəkkəb zərfliklər işlənmiş cümlələri seçin.

*1. Şəhər üzük qaşı kimi mühasirəyə alınmışdı.*
*2. Həqiqət üzə çıxar-çıxmaz şübhələr silinir.*
*3. Fateh xəstə olduğu üçün işə gələ bilməmişdi.*
*4. Özünə yeni dostlar taparkən köhnələri unutma.*
*5. Kamal uğur qazanmaq üçün daha səylə çalışırdı.*

**100.** Uyğunluğu müəyyən edin.

*1. : ( qoşa nöqtə) işarəsindən istifadə edilir.*
*2. – ( tire) işarəsindən istifadə edilir.*
a. həmcins üzvlərdən əvvəl ümumiləşdirici söz gəldikdə
b. əlavələrlə aid olduğu üzvlər arasında
c. həmcins üzvlərdən sonra işlənən ümumiləşdirici sözdən əvvəl
d. əlavələrdən əvvəl “*yəni*” bağlayıcısı işləndikdə
e. xitabla ara sözlər arasında



## RİYAZİYYAT

**101.** Tənliyi həll edin: $2x^{-1} + 5(x-1)^{-1} = 6$

A) $\frac{3}{5}$ ; $\frac{1}{3}$
B) 5
C) 2 ; $\frac{1}{6}$
D) 4
E) 2; $\frac{1}{2}$

**102.** $\frac{1}{a} - \frac{1}{b} = \frac{1}{4}$ olduqda, $\frac{ab}{a-b}$ ifadəsinin qiymətini tapın.

A) $-1$
B) $-4$
C) 8
D) 4
E) 1

**103.** İti bucağı $55^0$ olan $ABCD$ paraleloqramında $DE = BC$ olarsa, $ADE$ bucağını tapın.




A) $80^0$
B) $40^0$
C) $100^0$
D) $50^0$
E) $70^0$

**104.** Bərabəryanlı üçbucağın oturacağına bitişik bucağı $31^0$-dən böyük, $33^0$-dən kiçikdir. Üçbucağın təpə bucağının ala biləcəyi ən böyük tam qiyməti tapı

A) $117^0$
B) $118^0$
C) $149^0$
D) $64^0$
E) $147^0$

**105.** Həmişə doğru olan bərabərlikləri göstərin:

1. $\sqrt{a^8} = a^4$
2. $\sqrt{a^6} = a^3$
3. $\sqrt{(2-\sqrt{5})^2} = \sqrt{5} - 2$
4. $\sqrt{a^{16}} = a^4$
5. $\sqrt{(3-\sqrt{2})^2} = 3 - \sqrt{2}$

A) 2;3;4
B) 1;2;3
C) 2;4;5
D) 1;2;5
E) 1;3;5

**106.** Şəkildə verilənlərə görə, $ABC$ düzbucaqlı üçbucağında $\frac{\sin\alpha+\cos\alpha}{\sin\alpha\cdot\cos\alpha}\cdot\frac{1}{\sqrt{41}}$ ifadəsini hesablayın.




A) $\frac{33}{19}$
B) $\frac{11}{20}$
C) $\frac{37}{20}$
D) $\frac{9}{20}$
E) $\frac{17}{20}$

**107.** $\left(\sqrt{3}-\sqrt{2}\right)^{-2} - \left(5+2\sqrt{6}\right)^{-1}$ ifadəsinin qiymətini hesablayın.

A) 10
B) $-2\sqrt{6}$
C) $4\sqrt{6}$
D) 0
E) 5

**108.** $\frac{6}{x^2-4} = \frac{A}{x-2} + \frac{B}{x+2}$ olarsa, $A \cdot B$ hasilini tapın.

A) $-\frac{9}{4}$
B) $-\frac{5}{9}$
C) $\frac{9}{4}$
D) $-\frac{2}{9}$
E) $-\frac{3}{4}$

**109.** $ADC$ üçbucağında $AD \perp DC; BE \perp AC; AD = 8\ sm$, $BE = 6\ sm$, $BC = 12\ sm$ olarsa, $AC$-nin uzunluğu neçə santimetrdir?




A) 18 $sm$
B) 16 $sm$
C) 28 $sm$
D) 20 $sm$
E) 24 $sm$

**110.** Sahəsi 60 $sm^2$ olan $ABCD$ trapesiyasında
$AD = HB = BC$;
$DH \perp AB$;
$DH = 6$ $sm$
olarsa, $DC$-nin uzunluğunu tapın.




A) 5 $sm$
B) 3 $sm$
C) 2 $sm$
D) 6 $sm$
E) 4 $sm$

**111.** $x^2 - kx - 12 = 0$ tənliyinin kökləri $x_1$ və $x_2$ -dir. $x_1 \cdot x_2^2 = -36$ olarsa, $k \cdot 2\sqrt{6}$ ədədinin tam hissəsini təyin edin.
A) 6
B) 2
C) $-2$
D) $-4$
E) $-5$

**112.** $x = \sqrt{1 + \sqrt{16 - \sqrt{49}}}$

$y = \sqrt{12 + \sqrt{19 - \sqrt{9}}}$

olarsa, $x + y$ cəmini hesablayın.
A) 20
B) 2
C) 6
D) 16
E) 13

**113.** $ABCD$ trapesiyasında $AC$ və $BD$ diaqonalları $E$ nöqtəsində kəsişir. Böyük oturacağın uzunluğu 18 $sm$-dir. $E$ nöqtəsindən kiçik oturacağa qədər məsafə 2 $sm$, böyük oturacağa qədər məsafə isə kiçik oturacağa bərabər olarsa, kiçik oturacağın uzunluğunu tapın.




A) 4 $sm$
B) 8 $sm$
C) 6 $sm$
D) 7 $sm$
E) 12 $sm$

**114.** $4{,}5 \cdot 10^{-4} + 0{,}55 \cdot 10^{-3}$ ədədinin tərtibi $a$, qiymətli hissəsi $b$ olarsa, $\sqrt{b-a}$ ifadəsini hesablayın.
A) $\sqrt{5}$
B) $\sqrt{7}$
C) $\sqrt{6}$
D) 1
E) 2

**115.** $ABC$ üçbucağında $BE$ və $AM$ medianları $G$ nöqtəsində kəsişirlər.
$DE \parallel BC$;
$AK \perp DE$;
$BG = 12$ $sm$;
$GM = 8$ $sm$
olduğuna görə $AE$- nin uzunluğunu tapın.




A) $\sqrt{152}$ $sm$
B) $3\sqrt{17}$ $sm$
C) $4\sqrt{19}$ $sm$
D) $2\sqrt{41}$ $sm$
E) $\sqrt{103}$ $sm$

Qəbul imtahanı -2025

**116.** $\frac{x^3+2x^2-16x-32}{(x-1)^3+(1-x)^3+(x-1)^2-9}$ kəsrini ixtisar edin.

A) $x-2$
B) $2-x$
C) $x-3$
D) $x+4$
E) 1

**117.** $ABCD$ rombunda $B$ kor bucaq təpəsindən $AD$ tərəfinə uzunluğu 6 $sm$ olan $BM$ hündürlüyü çəkilmişdir. $AM: MD = 4:1$ nisbətində olarsa, rombun sahəsini tapın.

A) 50 $sm^2$
B) 40 $sm^2$
C) 30 $sm^2$
D) 20 $sm^2$
E) 60 $sm^2$

**118.** Qatar 600 $km$ məsafənin $\frac{1}{4}$ hissəsini getdikdən sonra 1 $saat$ 30 $dəqiqə$ dayandı. Sonuncu stansiyaya vaxtında çatmaq üçün sürəti 15 $km/saat$ artırdı. Qatar yolda neçə saat olmuşdur?

A) 10 $saat$
B) 15 $saat$
C) 6 $saat$
D) 2 $saat$
E) 40 $saat$

**119.** Sadələşdirin: $\left(\frac{a+\sqrt{x}}{a-\sqrt{x}}+\frac{a-\sqrt{x}}{a+\sqrt{x}}\right)\cdot\frac{a-\sqrt{x}}{a^2+x}$

A) $\frac{2}{a+\sqrt{x}}$

B) $a-\sqrt{x}$

C) $\frac{a-\sqrt{x}}{a+\sqrt{x}}$

D) $\frac{1}{a+\sqrt{x}}$

E) $\frac{a+\sqrt{x}}{2}$

**120.** $AF$ və CE tənbölən, $\angle BCD = 90^0$, $AB = 11\ sm$, $EF = 2\ sm$, $BC = 6\ sm$, $CD = 8\ sm$ olarsa, $AD$- nin uzunluğunu tapın.

A) 5 $sm$
B) 6,5 $sm$
C) 4,5 $sm$
D) 9,5 $sm$
E) 8 $sm$




**121.** Sahəsi 24, kor bucağı $150^0$ olan $ABCD$ paraleloqramında $AD = x$; $AB = x+2$ olarsa, paraleloqramın perimetrini tapın.




A) 6
B) 8
C) 28
D) 14
E) 32

**122.** $2x^2-(m-4)x+2m-22=0$ tənliyinin kökləri $x_1$ və $x_2$ -dir. $x_1 = 5$ olduğuna görə $\sqrt{x_1^2-9x_2^2}$ ifadəsinin qiymətini tapın.

**123.** Təkliflərdə neçəsi həmişə doğrudur?

*1. Paraleloqramın diaqonalları tənböləndir*
*2. Romb paraleloqramdır*
*3. Paraleloqramın 2 simmetriya oxu var*
*4. Düzbucaqlının diaqonalları bərabərdir*
*5. Dördbucaqlı kvadratdır*
*6. Rombun diaqonalları tənböləndir*

**124.** $a^2 - 2a - 6 = 0$ olduğunu bilərək, $\frac{a^3+8}{2a+4}$ ifadəsinin qiymətini tapın.

**125.** Kvadrat tənliklər üçün uyğunluğu müəyyən edin: $(m = R)$

1\. $x^2 + mx + m = 0$
2\. $x^2 + mx - 1 = 0$
3\. $x^2 + mx + m - 1 = 0$

a) $m = 4$ olduqda kökləri irrasionaldır
b) $m = 2$ olduqda iki bərabər həqiqi kökü var
c) $m = 2$ olduqda həqiqi kökü yoxdur
d) $m = 0$ olduqda iki bərabər həqiqi kökü var
e) $m = 2$ olduqda iki müxtəlif həqiqi kökü var

Qəbul imtahanı -2025

# TDV Bakı Türk Liseyinin 2001-2024-cü illər üzrə qəbul uğurları

- **19** nəfər — 700 bal
- **38** nəfər — Ölkə birincisi
- **2196** nəfər — Məzun sayı
- **947** nəfər — 600 bal
- **108** nəfər — Prezident təqaüdçüsü
- **161** nəfər — Qızıl medal

# TDV BTL 2024-cü il üzrə ümumi qəbul göstəriciləri

- **4** nəfər — Blok və buraxılış imtahanı Respublika birincisi
- **3** nəfər — TR YÖS/1, TR YÖS/2 dünya birincisi
- **35** nəfər — 600 bal
- **106** nəfər — 2024-cü il Xarici ölkə Uni. qəbul
- Rəsmi Beynəlxalq Olimpiadalar — 2 qızıl, 3 gümüş, 6 bürünc
- **19** nəfər — ABŞ, Çin, Almaniya, Litva, Finlandiya, Belçika, Çexiya, Cənubi Koreya Uni.-ləri
- RFO 2024 — 12 qızıl, 16 gümüş, 9 bürünc
- **87** nəfər — Türkiyə Universitetləri
- RFM 2024 — 7 qızıl, 11 gümüş, 12 bürünc
- **4** nəfər — Prezident təqaüdçüsü
- Ölkədaxili və Beynəlxalq Olimp. və yarışlar — 39 qızıl, 50 gümüş, 47 bürünc
- **31** nəfər — YTB bursu ilə Türkiyə Uni. qəbul olunan

TÜRKİYE DİYANET VAKFI BAKÜ TÜRK LİSESİ